**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin**
**Sənaye şöbəsinin**
**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra – Nazirlik) aparatının struktur bölməsi olan Sənaye şöbəsi (bundan sonra – şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində sənayenin davamlı inkişafını təmin etmək məqsədilə ölkə sənayesinin vəziyyətinin və dünya sənaye tendensiyalarının təhlili əsasında sənaye sahəsində dövlət tənzimlənməsi, sənayenin, o cümlədən onun ayrı-ayrı alt-sahələrinin inkişafının dəstəklənməsi, sənaye strukturunun optimallaşdırılması və qabaqcıl təcrübə və innovasiya tədbirlərinin hazırlanması və tətbiqi sahəsində işlərin təşkilini və tənzimlənməsini həyata keçirir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni, digər qanunvericilik aktlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra – nazir) əmr və sərəncamlarını (bundan sonra – təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin aparatının bölmələri, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslər (bundan sonra – Nazirliyin strukturları), eləcə də mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.1. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.1.1. sənayenin inkişafı və şaxələndirilməsi, onun dəstəklənməsi və dövlət tənzimlənməsi, sənayedə struktur, innovasiya və elmi-texniki siyasətin formalaşması sahələrində tədbirlərin işlənib hazırlanmasını və həyata keçirilməsini təmin edir;

2.1.2. sənaye parklarının, sənaye məhəllələrinin, xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyəti, yerli resurslardan səmərəli istifadə edən, rəqabətqabiliyyətli və yüksək əlavə dəyər yaradan istehsal sahələrinin qurulması və sənaye istehsalının regional strukturunun təkmilləşdirilməsi sahələrində tədbirlərin işlənib hazırlanmasını və həyata keçirilməsini təmin edir;

2.1.3. sənaye sahəsində inkişaf konsepsiyalarının, proqnozların, dövlət proqramlarının və qanunvericilik aktlarının layihələrinin işlənib hazırlanmasını və həyata keçirilməsini təmin edir;

2.1.4. aidiyyəti qurumlarla birlikdə sənaye sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsini təmin edir;

2.1.5. sənaye sahəsinə investisiyaların cəlb edilməsi və təşviqi sahəsində dövlət siyasətinin aidiyyəti qurumlar ilə birlikdə formalaşdırılması və həyata keçirilməsini təmin edir;

2.1.6. sənaye müəssisələrinin mövcud çətinliklərinin öyrənilməsi və müəssisələrin təkliflərinin dinlənilməsi məqsədilə sənaye müəssisələri ilə görüşlər keçirir və sorğular təşkil edir;

2.1.7. müvafiq sahənin inkişafını təmin edir;

2.1.8.qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, şöbənin vəzifələri aşağıdakılardır:

3.1. sənaye siyasəti üzrə tədbirləri işləyib hazırlamaq, bu tədbirlərin həyata keçirilməsini, habelə rəqabətqabiliyyətli və şaxələndirilmiş sənayenin inkişafının təmin edilməsi ilə bağlı aidiyyəti dövlət orqanları ilə birlikdə zəruri tədbirlər görmək;

3.2. ölkə sənayesində struktur siyasəti üzrə tədbirlərin əsas istiqamətlərini işləyib hazırlamaq və onun həyata keçirilməsi ilə bağlı aidiyyəti dövlət orqanları ilə birlikdə zəruri tədbirlər görmək;

3.3. sənayedə innovasiya və elmi-texniki siyasətin formalaşdırılması ilə bağlı aidiyyəti dövlət orqanları ilə birlikdə zəruri tədbirlər görmək;

3.4. sənaye müəssisələrinin fəaliyyətinin dəstəklənməsi, təkmilləşdirilməsi və infrastruktur təminatının yaxşılaşdırılması məqsədilə təkliflər vermək, müvafiq tədbirlər hazırlamaq və onların həyata keçirilməsində iştirak etmək;

3.5. sənayenin, o cümlədən onun ayrı-ayrı sahələrinin mövcud vəziyyətini təhlil etmək, sənayenin gələcək inkişafını proqnozlaşdırmaq, sənaye sektorunun inkişafı və islahatı

prioritetlərinin müəyyən olunmasına və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

3.6. ölkənin sənaye məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsini genişləndirmək məqsədilə tədbirlər işləyib hazırlamaq və onların həyata keçirilməsində fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

3.7. yerli resurslardan səmərəli istifadə etməklə rəqabətqabiliyyətli son sənaye məhsullarının istehsalının, yeni sənaye sahələrinin, o cümlədən yüksək əlavə dəyər yaradan istehsal sahələrinin yaradılmasının və fəaliyyətinin, habelə sənaye sahələri üzrə innovasiya fəaliyyətinin stimullaşdırılması, dəstəklənməsi və təşviqi ilə bağlı təkliflər vermək;

3.8. sənaye istehsalının regional strukturunun təkmilləşdirilməsi, sənaye zonalarının yaradılması və ərazi planlaşdırılması sənədlərindən sənaye zonaları üçün ərazilərin planlaşdırlması ilə bağlı tədbirlərin həyata keçirilməsində fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

3.9. sənaye üzrə icmal, arayış və hesabatlar hazırlamaq, məlumat bazasının yaradılması, təkmilləşdirilməsi və mütəmadi yenilənməsi ilə bağlı tədbirlər görmək;

3.10. fəaliyyət istiqamətləri üzrə məqsədli proqramların və konsepsiyaların, təşkilati-sərəncamverici sənədlərin layihələrinin hazırlanmasını və həyata keçirilməsini Nazirliyin aidiyyəti strukturlarının iştirakı ilə təşkil etmək, digər dövlət orqanları tərəfindən hazırlanmış layihələrə dair rəylər hazırlamaq;

3.11. sənaye müəssisələri və təşkilatlarının inkişaf etdirilməsi ilə bağlı beynəlxalq əməkdaşlığın həyata keçirilməsini təşkil etmək və bununla bağlı zəruri tədbirlər görmək;

3.12. sənayenin ayrı-ayrı sahələrinin inkişafı, həmçinin rəqabət qabiliyyətinin gücləndirilməsi məqsədilə müvafiq sənaye (alt-sənaye) birlikləri və assosiasiyalarının yaradılmasının təşviq olunması, bu kimi birlik və assosiasiyalarla əlaqələrin qurulması və dərinləşdirilməsi sahəsində tədbirlər görmək;

3.13. sənayenin ayrı-ayrı sahələrinin inkişafı, həmçinin rəqabət qabiliyyətinin gücləndirilməsi məqsədilə sənaye sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığın qurulması, bu təşkilatlar vasitəsilə qabaqcıl təcrübə, yeni texnologiya və innovasiya işlərinə dəstək üzrə layihələri işləyib hazırlamaq və həyata keçirmək;

3.14. Nazirliyin aidiyyəti strukturları ilə birlikdə Azərbaycan sənaye müəssisələrinin xarici bazarlara çıxışı ilə bağlı təkliflər hazırlamaq və onların həyata keçirilməsi üçün tədbirlər görmək;

3.15. sənaye müəssisələrinə dəstək tədbirlərinin maliyyələşdirilməsinə dövlət büdcəsi vəsaitlərinin, xarici kreditlərin (qrantlar və digər maliyyə vəsaitləri), yerli və xarici hüquqi və fiziki şəxslərin könüllü ayırmalarının cəlb edilməsi üçün təkliflər hazırlamaq;

316. sənaye parklarının, sənaye məhəllələrinin, sənaye və xüsusi iqtisadi zonaların və s. yaradılması, fəaliyyətinin dövlət tənzimlənməsi, təhlili, zəruri hallarda onlarının fəaliyyətinin optimallaşdırılması və inkişaf etdirilməsinə dair təkliflər hazırlamaq, habelə onların həyata keçirilməsi ilə bağlı tədbirlər görmək;

3.17. qabaqcıl təcrübənin, yeni texnologiya və innovasiyaların sənayedə tətbiqinin dəstəklənməsi məqsədilə yerli və xarici elmi təşkilatlarla yerli sənaye müəssisələri və sənaye assosiasiyaları arasında əlaqələrin yaradılması və genişləndirilməsi ilə bağlı təkliflər hazırlamaq, müvafiq əməkdaşlıq mexanizmlərinin işlənməsini və tətbiq olunmasını təmin etmək;

3.18. ölkədə və xaricdə keçirilən sənaye forumlarının, konfranslarının, sərgilərinin və digər analoji tədbirlərin təşkilində və işində fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

3.19. sənaye sahələrində Nazirliyin rəhbər şəxslərinin keçirdiyi görüşlərdə, forumlarda, səfərlərdə və digər tədbirlərdə iştirak etmək, bununla bağlı məlumatlar hazırlamaq;

3.20. sənaye məhsullarının keyfiyyətinin qaldırılması, bununla əlaqədar müvafiq keyfiyyət markasının (markaların) işlənməsi və təşviqi üzrə təkliflər hazırlamaq və onların həyata keçirilməsi ilə bağlı tədbirlər görmək;

3.21. sənayenin rəqabət qabiliyyətinin gücləndirilməsi məqsədilə sənaye müəssisələrinə marketinq, markalaşma və məhsul dizaynı üzrə dəstək təkliflərini hazırlamaq və onların həyata keçirilməsi ilə bağlı tədbirlər görmək;

3.22. sənayenin rəqabət qabiliyyətinin gücləndirilməsi məqsədilə sənaye işçilərinin potensialının (bilik və bacarıqların) gücləndirilməsi sahəsində təkliflər hazırlamaq;

3.23. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə, yerli və beynəlxalq təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.24. səlahiyyətləri çərçivəsində Nazirliyin inkişaf konsepsiyasının (strateji planının) həyata keçirilməsini təmin etmək;

3.25. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.26. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.27. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4. Şöbənin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

41. ölkədə aparılan iqtisadi siyasətə uyğun olaraq sənaye sahəsində dövlət tənzimlənməsinə, ölkə sənayesinin inkişafına, onun strukturunun optimallaşdırılmasına, qabaqcıl təcrübənin və innovasiya tədbirlərinin tətbiqinə dair təkliflər hazırlamaq;

4.2. Nazirliyin fəaliyyət istiqamətləri üzrə sənaye sahəsini tənzimləyən qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrinin hazırlanması prosesinə zərurət yarandıqda mütəxəssislərin cəlb edilməsi ilə bağlı Nazirliyin rəhbərliyi qarşısında məsələ qaldırmaq;

4.3. fəaliyyət istiqamətləri üzrə təhlillər, ümumiləşdirmələr, monitorinqlər və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq;

4.4. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar Nazirliyin strukturlarına müvafiq sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

4.5. Nazirliyin strukturları tərəfindən hazırlanmış sənəd layihələrinə (məktub, arayış, sorğu, normativ akt və s.) dair rəy və təkliflər vermək;

4.6. fəaliyyət dairəsinə aid edilmiş məsələlərlə bağlı səlahiyyətləri daxilində Nazirliyi dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək, hüquq və mənafelərini müdafiə etmək;

4.7. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək, onların işində iştirak etmək;

4.8. dövlət orqanlarına, bələdiyyələrə, fiziki və hüquqi şəxslərə müraciətlərin layihələrini hazırlamaq;

4.1.9. fəaliyyət istiqamətlərinə uyğun xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

4.10. müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

4.11. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz.

Şöbənin strukturuna Sənaye siyasəti sektoru, Təhlil və icmal sektoru, Sahəvi inkişaf sektoru və Layihələrin əlaqələndirilməsi sektoru daxildir.

5.2. Şöbənin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavin(lər)i vardır. Şöbə müdirinin müavin(lər)i şöbə müdiri tərəfindən on(lar)a həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır(lar).

Şöbə müdiri olmadıqda, onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavini (müavinlərindən biri) və ya nazir tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

5.4. Şöbənin digər əməkdaşları nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Şöbə müdiri:

5.5.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.5.3. şöbəyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.5.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, şöbə tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.5.5. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.5.6. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.5.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.5.8. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.5.9. şöbəni təmsil edir.

5.6. Şöbənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

**6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri**

6.1. Sənaye siyasəti sektorunun vəzifələri aşağıdakılardır:

6.1.1. ölkə sənayesinin əsas inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində iştirak etmək;

6.1.2. sənayenin inkişafı istiqamətində strategiya və proqramların layihələrini hazırlamaq və onların həyata keçirilməsində iştirak etmək;

6.1.3. yüksək əlavə dəyər yaradan istehsal sahələrinin yaradılması, fəaliyyətinin stimullaşdırılması və dəstəklənməsi ilə bağlı təkliflər hazırlamaq;

6.1.4. ölkənin sənaye məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsini genişləndirmək məqsədilə müvafiq tədbirlərin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

6.1.5. nəzərdə tutulan iri və strateji iqtisadi layihələrin ölkə sənayesinin inkişaf strategiyasına uyğunluğunu təhlil etmək;

6.1.6. sənaye sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq istiqamətlərinin qurulması və genişləndirilməsi ilə bağlı tədbirlər görmək;

6.1.7. dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində iri layihələrin dəstəklənməsi və həyata keçirilməsi üzrə təkliflər hazırlamaq;

6.1.8. dünyada baş verən iqtisadi prosesləri fəaliyyət istiqamətləri üzrə təhlil etmək və həmin proseslərin ölkənin sənayesinə təsirini qiymətləndirmək;

6.1.9. sənaye sahəsini tənzimləyən qanunvericilik aktlarının və dövlət proqramlarının layihələrini hazırlamaq;

6.1.10. dövlətə məxsus sənaye müəssisələrinin yaradılması, restrukturizasiyası və ləğv edilməsi üzrə təkliflər hazırlamaq;

6.1.11. Sənaye sahələrinə investisiyaların cəlb edilməsi və təşviqi sahəsində tədbirlərin hazırlanmasında və onların həyata keçirilməsində iştirak etmək;

6.1.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.1.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.2. Təhlil və icmal sektorunun vəzifələri aşağıdakılardır:

6.2.1. ölkə sənayesi üzrə aidiyyəti struktur və təşkilatlardan mütəmadi olaraq məlumatları toplamaq və bu məlumatlar üzrə təhlillər aparmaq;

6.2.2. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair təkliflər hazırlamaq;

6.2.3. ölkə və dünya sənayesində baş verən dəyişikliklərin təhlilini, icmalını aparmaq və arayışlar hazırlamaq;

6.2.4. sənaye sahəsi üzrə qəbul edilmiş dövlət proqramları, tədbirlər planları və digər sənədlərin yerinə yetirilməsinin gedişatı üzrə məlumatları toplamaq və ümumiləşdirərək aidiyyəti üzrə təqdim etmək;

6.2.5. Ölkənin sənaye göstəriciləri üzrə ümumi arayışlar hazırlamaq;

6.2.6. sənayenin sahələri üzrə bazar araşdırmaları aparmaq və belə araşdırmaların aparılması ilə bağlı təkliflər hazırlamaq;

6.2.7. Nazirliyin fəaliyyəti ilə bağlı hesabatların hazırlanmasında şöbənin fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

6.2.8. dünyada baş verən iqtisadi prosesləri fəaliyyət istiqamətləri üzrə təhlil etmək və həmin proseslərin ölkə sənayesinə təsirini qiymətləndirmək;

6.2.9. sənaye müəssisələri üzrə statistik bazanın yaradılması və onun təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirləri həyata keçirmək, bazanın müntəzəm şəkildə yenilənməsini təmin etmək;

6.2.10. sənaye müəssisələrinin fəaliyyətinin ölkə iqtisadiyyatına təsirlərinin qiymətləndirilməsi məqsədilə təhlillər aparmaq;

6.2.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.2.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.3. Sahəvi inkişaf sektorunun vəzifələri aşağıdakılardır:

6.3.1. sənaye müəssisələrinin təhlilini aparmaq və onların inkişafı üzrə təkliflər hazırlamaq;

6.3.2. dövlət əhəmiyyətli yeni sənaye müəssisələrinin qurulması üzrə təkliflər hazırlamaq və onların həyata keçirilməsində iştirak etmək;

6.3.3. mövcud istehsal sahələrinin genişləndirilməsi üzrə təhlillər aparmaq və təkliflər hazırlamaq;

6.3.4. dövlət-özəl əməkdaşlığı çərçivəsində emal sənayesi sahəsində iri layihələrin dəstəklənməsi və həyata keçirilməsi üzrə təkliflər hazırlamaq;

6.3.5. dünyada baş verən iqtisadi prosesləri fəaliyyət istiqamətləri üzrə təhlil etmək və həmin proseslərin ölkənin emal sənayesinə təsirini qiymətləndirmək;

6.3.6. emal sənayesinin ayrı-ayrı sahələri üzrə bazar araşdırmaları aparmaq və belə araşdırmaların aparılması ilə bağlı təkliflər hazırlamaq;

6.3.7. sənaye birlikləri və assosiasiyalarının yaradılması üzrə təkliflər hazırlamaq və onların qurulması ilə bağlı tədbirləri həyata keçirmək;

6.3.8. sənaye sahəsində mövcud istehsal sahələrinin genişləndirilməsi üzrə təhlillər aparmaq və təkliflər hazırlamaq;

6.3.9. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.3.10. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.4. Layihələrin əlaqələndirilməsi sektorunun vəzifələri aşağıdakılardır:

6.4.1. ölkənin sənaye müəssisələrinin rəqabət qabiliyyətinin gücləndirilməsi məqsədilə marketinq, markalaşma və dizayn dəstəyi üzrə təkliflər hazırlamaq və onların həyata keçirilməsi ilə bağlı tədbirlər görmək;

6.4.2. ölkə sənayesinin keyfiyyət və məhsuldarlığının yüksəldilməsi məqsədilə sənaye işçilərinin potensialının gücləndirilməsi, keyfiyyət və məhsuldarlıq istiqamətlərində mükafatlandırma sisteminin yaradılması və onun təkmilləşdirilməsi üzrə təkliflər hazırlamaq;

6.4.3. ölkə sənayesinin rəqabət qabiliyyətinin gücləndirilməsi məqsədilə qabaqcıl təcrübənin, texnologiya və innovasiyaların sənayedə tətbiqinin, həmçinin nou-hauların, lisenziya və patentlərin alınmasının dəstəklənməsinə və onların tətbiqi mexanizmlərinə dair təkliflər hazırlamaq;

6.4.4. ölkədəki sənaye istehsalı məhsullarının xarici bazarlara çıxışının təmin olunması, xarici bazarlarda markalaşması və bu məhsullara tələb yaradılması ilə bağlı tədbirlər görmək, o cümlədən marketinq araşdırmalarının aparılması, marketinq strategiyalarının, təbliğat və təşviqat məlumatlarının hazırlanması və yayılması ilə bağlı dəstək mexanizmlərini hazırlamaq;

6.4.5. ölkə sənayesinin inkişafı istiqamətində təkliflər hazırlanarkən müvafiq sənaye birlikləri və assosiasiyaları, həmçinin beynəlxalq marketinq və markalaşma təşkilatları ilə əlaqələr qurmaq və genişləndirmək;

6.4.6. dünyada baş verən iqtisadi prosesləri fəaliyyət istiqamətləri üzrə təhlil etmək və həmin proseslərin ölkənin sənaye istehsalına (keyfiyyət və məhsuldarlığa) təsirini qiymətləndirmək;

6.4.7. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.4.8. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.